*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 360-364*

https://doi.org/10.62837/2026.5.360

**QULIYEVA PƏRVANƏ ELMAR QIZI**
**Gəncə Dövlət Universiteti Publi k Hüquqi Şəxs**
**Azərbaycan və dünya ədəbiyyatı kafedrası**
pervane.quliyeva73@gmail.com

# NƏRİMAN HƏSƏNZADƏ YARADICILIĞINDA ESTETİKA MƏSƏLƏLƏRİ

**Açar sözlər:** ədəbiyyat, poeziya, yaradıcılıq, insan, estetika, müdriklik, sənətkarlıq, estetika
**Ключевые слова:** литература, культура, творчество, человек, мораль, мудрость, мастерство, народный, художественный
**Keywords:** literature, culture, creativity, human, morality, wisdom, craftsmanship, folk, artistic

Şeir sənəti barədə, eləcə də estetika barədə mühakimə yürüdərkən biz tez-tez «poeziyanın sehri», «poeziyanın musiqisi», «poeziyanın sirri» ifadələrini işlədir, bununla adətən anlaşılması asan olmayan hissi qavrayışı, predmeti dəqiq müəyyənləşdirməyən qeyri – adi məfhumları, duyğuları, etik cəhətdən açmağa çalışırıq, şerdəki estetik gözəlliyi, estetik mahiyyəti duymaq isdedadı tələb edir. Bu tələb ilham pərisini hərəkətə gətirir və bu da gözəldir ki, hər kəs hər bir qabiliyyətli adam onları oxuyanda həyəcanlanır. Belə anlarda həmin adamlar özlərini şair hesab edir. Poeziyanın sehirli atribut vəzifəsini daşıyan estetika o zaman intəhası, təsirediciliyə, intəhasız kamilliyə qadir olur ki, şer yaradanın fitri isdedadı mənəvi təcrübəsi, etik çərçivə daxilində başlıca rol oynasın. Çünki on dörd yaşlının poetik duyumu və yetkin adamın estetik hissi və fikirləri arasında böyük fərq var. Tarix «ələyinin » dibində qalan inciləri – dünyanın poetik söz antologiyasının Vunderkindlər (onların dühasını inkar etmək məqsədində deyilik) deyil, zəngin mənəvi təcrübəyə, estetik zövqə malik olan qüdrətli şəxslər yaratmışlar. «Kultrologiya» N.Həsənzadənin dünya mədəniyyəti tarixinə aid araşdırıb yazdığı tədqiqat əsəri bu cəhətdən şairin estetikaya aid fikirlərini tarixləşdirir və aydın olur ki, estetika tarixən Misirdə təşəkkül tapmışdır. Dünyanın mədəniyyəti irsinə Qərbdə Homerdən Puşkinədək, Şərqdə Füzulidən H.Cavidə, M.Hadiyə, M.Ə.Sabirə, S.Vurğuna, R.Rzayadək neçə-neçə nəsillərin təxəyül qüdrəti və təcrübəsi sərf olunmuşdur.

Rusiyanın dar günündə qalxdıq ayağa
rusun tankı, təyyarəsi getdi qabağa,-
Brandenburq qapısından düz Reyxştaqa!
Bakı nefti Moskvanın qan damarıydı,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 360-364*

Neft çıxaran Azərbaycan oğullarıydı
…Şamaxılı Baş memarın günahı nəydi?-
Kremli tikən əllər bir möcüzəydi.
Qətli də bir möcüzəydi…
tərif üzəydi,
atamanın qılıncıyla tutuldu yası,
qoca tarix lənətlədi «Böyük knyazı»
Füzulisiz füzulilər doğulur yenə,
Qubadlısız Nəbi, Həcər doğulur yenə. (3,87)

Bu tarixdir, tarixin estetikası yatmış gözəldir. Yatmış «gözəlin» meyarı isə poeziyanın meyarıdır. Hər şeydən əvvəl bu sənətkarın, yetkinlik meyarıdır. Onun kollektiv təcrübəmizlə həmahəng olan fəlsəfi və mənəvi müdrikliyinin meyarıdır və bundan sonra şəxsiyyətin estetik harmoniyası, epitetlərin gözəlliyi və daha sonra dövrün əsən yellərinə istedad yelkəni ilə sinə gərmək bacarığı gəlir. Dövürlər dəyişir, ömür keçir, lakin həqiqi sənət estetik cəhətdən varlığı bizə sevdirən sənət dünyanı bizim üçün əbədi həmişə-yaşar varlığa çevirir. Əlbətdə söhbət insandan bütün – əsrlərdə insan olmaq eşqi ilə sevməkdən, məhəbbət oduna yanmaqdan, qüdsiyyətdən gedir. N.Həsənzadənin «Tariximiz, taleyimiz» kitabında toplanan müxtəlif məzmunlu əsərlərin hamısında demək olar ki, qüdrət, aydınlıq və müd-riklik hökm sürür. Şairin təlatümü inkar və təsdiqi, müsahibə xatirinə müsahibə, söz xatirinə söz deyil, ali ehtirasdan əks – sədalıqdan, qəlb çırpıntısından inamından doğur. Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən-dərinə düşündürür. Bu prosesdə o, ya düşünməli ya da düşünməməlidir. N. Həsənzadənin hissiyatı ikinci cəhəti qəbul etmir. Əsil qələm sahibləri əgər gecələr şam kimi yanırsa deməli düşünür. Bu düşüncənin estetikası Bəşəriyyətin yaşa-masına köməkdir. Lakin bu zaman «şairin özü də ixtiraçı olmalıdır». (Aristotel) və onun ixtirası cəmiyyətin tələbinə cavab verməlidir. Estetik duyumu gözəllikdən zövq alan şair üçün dayaz düşünmək hissi yoxdur. Həqiqi şair: xeyir və şəri, gözəlliklə eybə-cərliyi, böyüklüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldır-maq ehtirası Həsənzadənin fikirlərindədir. Mütəfək-kir – şairin əsas qayəsi də, uğuru da bundadır. Qadın – kişi münasibətindən doğan əbədi mövzu – Firdovsidə, Nizamidə, Xaqanidə, Füzulidə, Şekspirdə, Bal-zaq və Hüqoda, E.Zolya, Puşkin və L.Tolstoyda – var, lakin o, Həsənzadənin qələmində təzələnib. Bu nə Dostoyevskinin, «Ev sahibəsi»ndə təsvir olunan qadın, nə də Rəşad Nurinin «Çalıquşu» romanındakı Fəridə obrazına bənzəmir.

Nəriman Həsənzadə bütün insanlara xas olan bu ehtiraslardan birbaşa zaman, məkan və fəzanın abstrakt aləminə bizim günlərin həyəcanlarına-dünyanın nüvə təhlükəsinə körpü-fikirlər, körpü-obrazlar atır, yenidən hər birimizə, bütün nəsillərə, yenidən insana, öz qonşusuna, onun od- ocağına və bundan sonra bütün kainata üz tutur və bütün bu işlərdə o sözü diqqətlə seçir və yaxşı bilir ki: «Sözlə hər cür ifadədə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 360-364*

aşağıdakı hisslər vardır: əsas səs, heca, bağlayıcı, isim, feil, üzv, fleksiya, cümlə. Əsas səs bölünməz səsdir, ancaq hər cür yox, elə bölünməz səs ki, onlardan məna ifadə edən söz yaranır…».(4, 92)

Dünya bəlkə buna görə maraqlıdır.
Bəlkə elə
buna görə şairlər var,
yazılası, oxunası, yüz əsər var
Sənin, mənim arzumuzca,
dünya hökmü – fərman deyil.
(«Vətənsiz»)

Sözə belə diqqət və hörmətlə yanaşan şairin ölçüsüz istedadı, estetik fəaliyyətin məzmunu, istiqaməti formalarına Həsənzadə ictimai həyat şəraiti baxımından müəyyənləşdirərkən babası Füzuli kimi sözə üstünlük vermişdir. Mənə görə oxucu Həsənzadənin poeziyasında estetik gözəllikdən könül xoşluğu əldə edirsə, bu elə tarixin özüdür. Oxucuların çoxu bu gün özünü, öz dünyasını, öz hiss və həyəcanlarını Həsənzadənin-«Vətənsiz», «Zümrüd quşu», «Kulturologiya», «Pompeyin Qafqaza yürüşü», «Atabəylər», «Heybədə gəzən şer», «İtən səs haqqında nəğmə», «Uqraynalı qız», «İmzalar içində» və s.- əsərlərində tapa bilər.

N.Həsənzadənin yaradıcılığında estetika məsələləri, poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu müstəsna dərəcədə çox vacib haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində feil olmağı bacarırsan və xalqın dil mədəniyyətinə öz töhvəni verə bilərsən. Bununla bahəm Həsənzadənin poetik və estetik təfəkkür mədəniyyəti daha üstün məna kəsb edir. Və millilikdən ümumbəşəri zirvəyə qalxır. Onun obrazları bəşər mədəniyyətinin incilərini Sezarı, Hegeli, Şekspiri, Evripidi oxuyub zənginləşir.

İndiki halda Həsənzadənin Sovet dövründə yazdığı əsərlərini oxuyanda elə bil ki, dünyanı oxuyursan. «Tariximiz, taleyimiz» bu cəhətdən onun beynəlmiləlçiliyinə aid çox vacib problemlərə cavab verir. (2,165)

Bununla yanaşı vacib bir məsələni Həsənzadənin xarakterini-beynəlmiləl şair olduğunu müəyyən-ləşdirən üstünlükləri barədə nəzəri ayıl danışmaq isdərdim; - lirizm və vətəndaşlıq onun yaradıcılığında ayrılmaz, bir-birinə dayaq olan, estetik fəaliyyətə malik saz simləridir. Və bu simlər onun şəxsi və ictimai dünyagörüşünün sarsılmaz gücünə malik olduğuna zəmanət verir. Həsənzadənin yaradıcılığını bütövlükdə oxuduqda məlum olur ki, o, böyük vətənpərvərdi. O, ağıllıdır, sözün yaxşı mənasında emiasionaldır, gənc yazarlara yolgöstərən, nəsihətverən şairdir. N.Həsənzadənin yaradıcılığında estetika məsələləri–tarixi müasirlik baxımından yaşatmağı bacarır, keçmişi xatırlamaqla gələcəyi sevdirir. Həsənzadə keçmişə görə əzab çəkmək isdəmədiyinə görə «Pompeyin Qafqaza yürüşü» və «Atabəylər» mənzum dramlarını yazmış və bu da onun mövzu dairəsinin genişliyindən, hafizəsinin zənginliyindən xəbər verir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 360-364*

Həsənzadənin yaradıcılığında estetika məsələlərini açıqlayarkən mənim üçün aydın oldu ki, tarix çoxdan ötüb keçib, nə haqlılar qalıb, nə də haqsızlar. Adama elə gələ bilər ki, keçmiş qaranlıqlarda yoxa çıxmışsa, əzab çəkməyə dəyməz. Lakin Həsənzadə keçmişi bu günün gözü ilə müqəssir kürsüsündə oturdur: Pompeyi, II Turqanı iflic vəziyyətinə salır, bu tarixin səhifələrində saxladığı iflicdir, İnanc Xatunun başından estetik tacı götürür, nifrət tacını qoyur. Bəşəri hisslər bunu qəbul edir. Həsənzadə bizdə belə bir yəqinlik yaradır ki, indiki adamların taleyi keçmişdən asılıdır… Buna görə də estetikanın tarixinə də ötəri nəzər salmaq lazımdır. Axı, tarixin mərhələləri estetik hisslərdən məhrum deyil…

**Ədəbiyyat:**

1. Heydər Əliyev. Tarix, tarixdir. Bakı, 1996.
2. N.Həsənzadə. Mənim gecəm gündüzüm. Bakı, 1973.
3. Аристотел. Поезийа сяняти щаггында. Бакы, 1974, сящ. 92.

**Xülasə**

**NƏRİMAN HƏSƏNZADƏ YARADICILIĞINDA ESTETİKA MƏSƏLƏLƏRİ**

N.Həsənzadənin yaradıcılığında estetika məsələləri, poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu müstəsna dərəcədə çox vacib haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində feil olmağı bacarırsan və xalqın dil mədəniyyətinə öz töhvəni verə biləsən. Sözə belə diqqət və hörmətlə yanaşan şairin ölçüsüz istedadı, estetik fəaliyyətin məzmunu, istiqaməti formalarına Həsənzadə ictimai həyat şəraiti baxımından müəyyənləşdirərkən babası Füzuli kimi sözə üstünlük vermişdir. Mənə görə oxucu Həsənzadənin poeziyasında estetik gözəllikdən könül xoşluğu əldə edirsə, bu elə tarixin özüdür.

Bununla bahəm Həsənzadənin poetik və estetik təfəkkür mədəniyyəti daha üstün məna kəsb edir. Həsənzadənin yaradıcılığında estetika məsələlərini açıqlayarkən mənim üçün aydın oldu ki, tarix çoxdan ötüb keçib, nə haqlılar qalıb, nə də haqsızlar. Adama elə gələ bilər ki, keçmiş qaranlıqlarda yoxa çıxmışsa, əzab çəkməyə dəyməz. Lakin Həsənzadə keçmişi bu günün gözü ilə müqəssir kürsüsündə oturdur: Pompeyi, II Turqanı iflic vəziyyətinə salır, bu tarixin səhifələrində saxladığı iflicdir, İnanc Xatunun başından estetik tacı götürür, nifrət tacını qoyur. Bəşəri hisslər bunu qəbul edir.

**Резюме**

**ЭСТЕТИЧЕСКИЕ АСПЕКТЫ В ТВОРЧЕСТВЕ НАРИМАН ГАСАНЗАДЕ**

**Ст.пр.П.Е.Кулиева**

В творчестве Н. Гасанзаде вопросы эстетики, культуры поэтического мышления носят национальный характер. Чрезвычайно важно уметь быть активной частью речи народа, к которому ты принадлежишь, и вносить свой вклад в языковую культуру народа. Обладая безграничным талантом поэта,

который подходит к слову с таким вниманием и уважением, Гасанзаде, подобно своему деду Фюзули, отдавал предпочтение слову при определении содержания и направления эстетической деятельности в контексте условий социальной жизни. На мой взгляд, если читатель получает удовольствие от эстетической красоты в поэзии Гасанзаде, это и есть сама история.

В этом отношении поэтическое и эстетическое мышление Гасанзаде приобретает более глубокий смысл. Рассматривая вопросы эстетики в творчестве Гасанзаде, мне стало ясно, что история давно прошла, и нет ни праведных, ни неправедных. Человеку может показаться, что если прошлое исчезло во тьме, то оно не стоит того, чтобы страдать. Но Гасанзаде возлагает прошлое на трон вины, рассматривая его глазами настоящего: он парализует Помпея и Тургана II, паралич, который он сохраняет на страницах истории, снимает эстетическую корону с головы Инанджа Хатун и возлагает на нее корону ненависти. Человеческие чувства это принимают.

**Summary**

**AESTHETIC ISSUES IN THE CREATIVE WORK OF NARIMAN HESANZADE**

**Hd.tch.P.E.Guliyeva**

In the work of N. Hasanzadeh, the issues of aesthetics, the culture of poetic thinking are national in nature. It is extremely important that you are able to be an active part of the speech of the people you are a child of and be able to make your contribution to the language culture of the people. The boundless talent of the poet, who approaches the word with such attention and respect, Hasanzadeh, like his grandfather Fuzuli, gave preference to the word when determining the content and direction of aesthetic activity in terms of social life conditions. In my opinion, if the reader gets pleasure from aesthetic beauty in Hasanzadeh's poetry, this is history itself.

In this regard, Hasanzadeh's poetic and aesthetic thinking culture takes on a higher meaning. While explaining the issues of aesthetics in Hasanzadeh's work, it became clear to me that history has long passed, and there are neither the righteous nor the unjust. It may seem to a person that if the past has disappeared into the darkness, it is not worth suffering. But Hasanzadeh places the past in the chair of guilt through the eyes of the present: he paralyzes Pompey and Turgan II, a paralysis that he preserves in the pages of history, takes the aesthetic crown from the head of Inanj Khatun and puts on it the crown of hatred. Human feelings accept this.

**Rəyçi: Axundova Naziymə M.q.**